Qədim, doğma Qobustanım

# QOBUSTAN

Qobustan Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1992-ci ildən çıxır * İCTİMAİ-SİYASİ QƏZET * №008 (191) noyabr 2019-cu il

## Qobustan rayon İcra hakimiyyətinin başçısı cənab Adil Məmmədov tur aksiyası öncəsi şagirdlər, valideynlər və müşahidəçilərlə görüş keçirdi







***Qobustan rayon İcra hakimiyyətinin başçısı cənab Adil Məmmədov tur aksiyası öncəsi şagirdlər, valideynlər və müşahidəçilərlə görüş keçirdi.***

Çıxışında bildirdi ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, Azərbaycanın şəhər və rayonlarının 9-11-ci sinif şagirdlərinin ölkəmizi daha yaxından tanıması, onun tarixini, mədəniyyətini, adət-ənənələrini dərindən öyrənməsi, tarixi-mədəni irsimizə sədaqət və hörmət ruhunda tərbiyə olunması, müstəqillik illərində qazanılan nailiyyətləri öz gözləri ilə görmələri üçün 2014-cü ilin avqust ayından başlayaraq Prezident Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin təşkilatçılığı ilə şəhər və rayon icra hakimiyyətləri tərəfindən bölgələrə maarifləndirici tur-aksiyalar təşkil olunur. Cənab Prezidentimizə regionlarımıza göstərdiyi bu diqqət və qayğıya görə təşəkkür etdi.

Beləliklə, ”Ölkəmizi tanıyaq” adı altında 4 mərhələdə 7 istiqamət üzrə keçirilən maarifləndirici tur-aksiyalar Azərbaycanın dörd qütbünü bir nöqtədə birləşdirdi. Belə səfərlərdə bizim günü-gündən çiçəklənən,inkişaf edən Qobustan rayonunun məktəbliləri də ildə iki dəfə iştirak edirlər. Ən əvvəl iki məqama diqqət edək: səfər zamanı məktəblilərin rahatlığı üçün hər şey düşünülmüşdür. Hər ekskursiya qrupu 40 nəfər şagird, 5 nəfər müəllim-müşayiətçi daxil olmaqla 45 nəfərdən ibarət olur. İştirakçılar üçün xüsusi geyimlər hazırlanır. Hər cür rahatlığı ilə seçilən müasir avtobuslar da məktəblilərin ixtiyarına verilir. Şagirdlər getdikləri rayonların ən müasir otellərində qalır, gəzdikləri istirahət mərkəzlərinin bütün xidmətlərindən istifadə edirlər və 4 günlük vaxt isə rayonların tarixi, sosial-iqtisadi inkişafı, mədəni mühiti, özünəməxsus adət-ənənələri ilə tanışlıq üçün yetərli idi. Digər bir vacib məsələ: məktəblilər hər yerdə rayonların rəhbər qurumları, ziyalılar, müəllimlər, valideynlər tərəfindən təntənə ilə yola salınır, hər yerdə də eyni ovqatla, eyni əhvali-ruhiyyə ilə qarşılanırlar. Bu, bir tərəfdən ekskursiyaların yüksək səviyyədə təşkilindən, onun əhəmiyyətindən xəbər verirsə, digər tərəfdən xalqımızın əsrlərdən gələn, bu gün də məhəbbətlə qorunan adətinin - qonaqpərvərliyinin, böyük-kiçiyə hörmətin ifadəsi idi.

## Qobustan rayonunda "Ölkəmizi tanıyaq" devizi altında təşkil edilən tur-aksiyasında iştirak edən şagirdlərin yüksək səviyyədə yola salınma mərasimi təşkil edildi





***Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının tövsiyəsi və Prezident Administrasiyasının təşkilatçılığı ilə artıq ənənəvi olaraq beşinci ildir ki, Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin ”Ölkəmizi tanıyaq” devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur.***

Bu layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə Respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır. Ölkəmizdə ötən müddətdə ildə iki dəfə olmaqla 7 istiqamət üzrə 12 tur-aksiya təşkil edilib.









# Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Cəyirli kənd sakinləri ilə səyyar görüş keçirdi







**Qobustan rayon Cəyirli kənd ümumi orta məktəbdə Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Cəyirli kənd sakinləri ilə səyyar görüş keçirdi. Görüşdə Rayon İcra Hakimiyyəti başçısının müavini, aparatın şöbə müdirləri iştirak edirdi.**

Sakinlər çıxış edərək rayonumuzda gedən abadlıq və quruculuq işlərinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirdilər və onları narahat edən bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını xahiş etdilər. Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurum rəhbərlərinə konkret tapşırıqlar verdi.



# Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Göydərə kənd sakinləri ilə səyyar görüş keçirdi





**Qobustan rayon Göydərə kənd ümumi orta məktəbdə Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Göydərə kənd sakinləri ilə səyyar görüş keçirdi.**

Görüşdə Rayon İcra Hakimiyyəti başçısının müavini, aparatın şöbə müdirləri iştirak edirdi. Sakinlər çıxış edərək rayonumuzda gedən abadlıq və quruculuq işlərinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirdilər və onları narahat edən bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını xahiş etdilər. Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurum rəhbərlərinə konkret tapşırıqlar verdi.





# Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Üzümçü qəsəbə sakinləri ilə səyyar görüş keçirdi

Qobustan rayon Bədəlli kənd tam orta məktəbdə Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Üzümçü qəsəbə sakinləri ilə səyyar görüş keçirdi. Görüşdə Rayon İcra Hakimiyyəti başçısının müavini, aparatın şöbə müdirləri iştirak edirdi. Sakinlər çıxış edərək rayonumuzda gedən abadlıq və quruculuq işlərinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirdilər və onları narahat edən bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını xahiş etdilər. Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurum rəhbərlərinə konkret tapşırıqlar verdi.





# "Bayraq yürüşü"

Noyabrın 8-də Qobustan Rayon İcra Hakimiyyətinin, Gənclər və İdman idarəsinin, Təhsil şöbəsinin və Mədəniyyət şöbəsinin birgə təşkilatçılığı ilə Qobustan şəhərində Dövlət Bayrağı Gününə həsr olunmuş "Bayraq yürüşü" keçirilib.



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu ilin noyabrın 18-də imzaladığı sərəncamla 9 noyabr tarixi Dövlət Bayrağı Günü kimi qeyd olunur. Bu tarixdən etibarən Bayraq günü Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan azərbaycanlılar arasında daha da təmtəraqla qeyd edilir.**



Tədbirdə rayon gəncləri, Təhsil və mədəniyyət işçiləri, ziyalılar, idmançılar, müəllim və şagirdlər və KİV nümayəndələri iştirak ediblər. Yürüş iştirakçıları Dövlət Bayrağı Meydanından yola çıxaraq Qobustan rayon Heydər Əliyev prospektindən Ulu Öndərin xatirəsinə ucaldılmış abidənin önünə qədər davam ediblər.

# Qarabağ döyüşlərinin iştirakçıları ilə görüş

*Sizlər Qarabağ döyüşlərində rəşadətlə vuruşmusunuz. Bütün bunlar isə hər zaman hərbi qulluqçularımıza nümunədir.*

*"Müharibə zamanı şəhid olmuş, öz sağlamlığını itirmiş vətəndaşlarımız cəmiyyətin dəyərli insanlarıdır, bizim qəhrəmanlarımızdır. Biz sizinlə fəxr edirik".*

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

**28.11.2019 tarixdə Azərbaycan Qarabağ Müharibəsi Əlilləri,Veteranları və Şəhid Ailələri İctimai birliyinin Qobustan Rayon filyalinin hesabati keçrildi . İlk olaraq Ulu öndər H.Əliyevin abidəsi ziyarət olundu.Sonra şəhidlərin müqəddəs abidə kompleksi ziyarət olundu.Sonda isə Qobustan rayon icra hakimiyyətinin akt zalında əlillərin problemləri rayon rəhbər işçilərinin iştirakı ilə müzakirə olundu.**







Çıxış edənlər inandıqlarını bildirdilər ki, orada qaldırılan məsələlər öz həllini tapacaq. Belə ki, birliyin məqsədi Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin və veteranlarının qanuni mənafelərini və hüquqlarını müdafiə etmək, onların müasir həyat şəraitinə uyğunlaşdırılması, sosial-iqtisadi və mənəvi probremlərinin daha səmərəli həll olunmasına köməklik göstərmək, onların əməkdaşlığını və qarşılıqlı əlaqələrini möhkəmləndirməkdən ibarətdir. Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin, veteranlarının hüquq və maraqlarının qorunması üçün qanunvericilikdə və mövcud olan Nizamnamə ilə nəzərdə tutulmuş bütün vasitə və müdafiə üsullarından istifadə etməkdir.





# YAP Qobustan rayon təşkilatı təbliğat-təşviqat işlərinə start verdi












***YAP Qobustan rayon təşkilatı 23 dekabr 2019- cu il tarixdə keçiriləcək Bələdiyyə seçkilərilə əlaqədar təbliğat-təşviqat işlərinə start verdi.***

Məlum olduğu kimi , 23 dekabr 2019- cu ildə ölkəmizdə keçiriləcək Bələdiyyə seçkiləri ilə bağlı 30 noyabr 2019- cu il tarixdən təbliğat-təşviqat kampaniyasına start verildi. Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatı tərəfindən təşviqat lövhələrinə şəkilasma aksiyası keçirildi.Aksiya zamanı hər birində 3 nəfər könüllü olmaqla yaradılmış 9 qrup tərəfindən rayon ərazisindəki 28 təşviqat lövhəsinə hər iki tərəfdən 56 şəkil asılmışdır.

Təbliğat-təşviqat qrupları qabaqcadan tərtib olunmuş qrafik üzrə seçicilərlə görüş keçirəcək,əhali ilə birbaşa ünsiyyətdə olacaq ,hakim partiyanın gələcək yüksək amal və ideyalarını insanlara çatdıracaqdır. Yeni Azərbaycan Partiyasının ali məramının Azərbaycan xalqına xidmət etməkdən ibarət olduğu, regionlarda,eləcədə Qobustanda bundan sonrada həyata keçiriləcək uğurlu planların məqsədi aşılanacaqdır.Azərbaycanın gələcək inkişafı yalnız cənab İlham Əliyev siyasətindən və Onun həyata keçirdiyi iqtisadi- siyasi proqramlardan asılıdır.

Rayon gənclərinin fəal iştirakı təbliğat-təşviqat kampaniyasına xüsusi çalar qatacaq,təbliğatı daha dinamik edəcəkdir.Əhali ilə görüşlərdə rayon ağsaqqalları ,partiya veteranları,ziyalılar və könüllülər iştirak edəcəklər.Görüşlər müxtəlif formalarda ,ən yüksək şəkildə həyata keçiriləcəkdir.

Seçicilərlə keçiriləcək çoxsaylı görüşlərdə Yeni Azərbaycan Partiyasının namizədlərinin Azərbaycan dövlətçiliyi üçün həyata keçirdiyi misilsiz xidmətlərdən və ölkəmizin gələcək inkişaf konsepsiyasından çıxışlar ediləcəkdir. Bütün bunlar bir daha əminlik yaradır ki, Azərbaycan xalqı bir daha öz uğurlu seçimini edərək, ən layiqlilərə səs verməklə ölkənin inkişafına və tərəqqisinə səs verəcək.

***AZADƏ RƏSSAM***

# Bələdiyyənin cəmiyyətdə rolu

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son on beş ildə gələcəyə hesablanmış əhatəli dövlət proqramlarının, genişmiqyaslı sosial və infrastruktur layihələrinin həyata keçirilməsi ölkəmizin sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoymuş, demokratik proseslərə güclü təkan vermiş, onun beynəlxalq aləmdə nüfuzunu gücləndirmişdir.***

Bələdiyyələr artıq 20 ildir ki, fəaliyyət göstərir, Azərbaycanda aparılan köklü islahatlar və yaşanan dinamik tərəqqi dövründə özünün inkişaf yolunu keçir, vətəndaşların maraq və mənafeləri naminə yerli əhəmiyyətli məsələlərin həllində iştirak edir, onların etibarını qazanmağa, cəmiyyətimizdə özünəməxsus yer tutmağa səy göstərir, fəallıqlarını artırır, öz səlahiyyətləri çərçivəsində konkret işlər görür

Vətəndaş cəmiyyətinin formalaşmasında yerli özünüidarəetmə orqanlarının da xüsusi yeri və rolu vardır. Yerli özünüidarəetmə ümumavropa demokratik norması kimi 1985-ci il oktyabrın 15-də Strasburqda qəbul edilmiş "Yerli özünüidarəetmə haqqında Avropa Xartiyası"nda təsdiq edilmişdir. Avropa Xartiyasında göstərilir: "Hər bir Avropa vətəndaşı yaşadığı dövlətin konstitusiya quruluşundan asılı olmayaraq, istər bu monarxiya olsun, yaxud respublika olsun, dövlət formasından asılı olmayaraq, istər bu federasiya olsun, yaxud unitar dövlət olsun, özünü ilk növbədə, yerli hakimiyyət səviyyəsində ifadə və təsdiq edir; o, burada onun gündəlik həyatına bilavasitə təsir göstərən qərarların qəbul olunmasında iştirak edə bilər. Yerli özünüidarənin Avropa Xartiyası yerli hakimiyyətlərin müdafiəsi və hüquq və azadlıqlarının möhkəmləndirilməsinə dair ümumavropa normalarının əsasını qoymuşdur".

Avropa Xartiyası yerli özünüidarəetməni demokratik, vətəndaş cəmiyyətində "real hakimiyyətə malik olan", "vətəndaş üçün yaxın olan idarəetməni təmin edən bilən", "geniş muxtariyyətə malik" olan orqan kimi səciyyələndirərək, "yerli özünüidarə" anlayışının mahiyyətini də açıqlamışdır: "Yerli özünüidarə dedikdə, yerli özünüidarə orqanlarının qanun çərçivəsində, məsuliyyəti öz üzərinə götürərək və yerli əhalinin mənafeyi naminə dövlət işlərinin böyük bir hissəsini nizama salmaq və onu idarə etmək hüququ və real bacarığı başa düşülür. Bu hüquq azad, gizli, bərabər, birbaşa və ümumi səsvermə yolu ilə seçilmiş üzvlərdən ibarət olan şuralar və ya yığıncaqlar tərəfindən həyata keçirilir. Şuraların və ya yığıncaqların onlara hesabat verən icra orqanları ola bilər. Bu müddəalar vətəndaşların yığıncaqlara, qanunun yol verdiyi yerlərdə referenduma, yaxud vətəndaşların bilavasitə iştirakının hər hansı bir formasına müraciət etməsini istisna etmir".2002-ci ilin avqust ayında Azərbaycan Respublikasının Konstitusiyasında referendum yolu ilə edilmiş dəyişikliklər insan hüquqlarının təminatı, ədalət mühakiməsinin imkanlarını daha da genişləndirmişdir. İdarəçilik sahəsində də islahatlar aparılmış və 1999-cu ildə, ilk dəfə olaraq, yerli özünüidarə orqanı olan bələdiyyələrə seçkilər keçirilmişdir.

Bələdiyyələrin hüquqi statusu ilə bağlı əsas müddəalar Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Konstitusiya ilə yanaşı, yerli özünüidarəni birbaşa tənzimləyən iyirmiyə yaxın qanun qəbul edilmişdir. Bunlardan "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyənin nümunəvi nizamnaməsinin təsdiq edilməsi haqqında" "Bələdiyyə qulluğu haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında", "Yerli rəy sorğusu haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunlarını qeyd etmək olar.

Azərbaycan Respublikası Konstitusiyasının dördüncü bölməsi "Yerli özünüidarəetmə", IX fəsli isə "Bələdiyyələr" adlanır ki, burada yerli idarələrin təşkili, bələdiyyələrin statusu, səlahiyyətləri haqqında konstitusiya qanunu təsbit edilmişdir: "Yerli özünüidarəni bələdiyyələr həyata keçirir. Bələdiyyələr seçkilər əsasında yaradılır. Bələdiyyələr seçkilərin qaydaları və bələdiyyələrin statusu qanunla müəyyən edilir".

Bələdiyyələrin statusuna bələdiyyə mülkiyyətinə sahiblik, yerli vergilərin və ödənişlərin, yerli sosial müdafiə və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi, yerli iqtisadi inkişaf proqramlarının qəbulu və icra edilməsi, yerli ekoloji proqramların qəbul və icra edilməsi. Bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlər də verilə bilər. Bu səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə müvafiq zəruri maliyyə vəsaiti də ayrılmalıdır. Belə səlahiyyətlərin həyata keçirilməsinə müvafiq olaraq qanunvericilik və icra hakimiyyətləri nəzarət edirlər.

Demokratikləşmə şəraitində vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu prosesində yaradılan bələdiyyələr hər bir regionu təbii və sosial-iqtisadi potensialından tam və səmərəli istifadə etmək imkanı yaradır. Bu baxımdan, Azərbaycan Respublikasında demokratik əsasda təşkil edilmiş bələdiyyələrin mərkəzi hökumətlə münasibətlərinin nizamlanma mexanizmi tam işlənib hazırlanmalıdır. Hələlik, əhalinin gündəlik həyat fəaliyytinin təmin olunması ilə bağlı funksiyaların yerinə yetirilməsinə uyğun səlahiyyətlərin bir çoxu dövlət hakimiyyət orqanlarında qalmaqdadır və bu sahədə qarşılıqlı fəaliyyət texnologiyası işlənib həyata keçirilməmişdir. Bu dövrdə daha yüksək nailiyyətlər əldə edilməsi üçün dünya dövlətlərinin təcrübəsindən istifadə edərək, əsaslı struktur və maliyyə-vergi islahatlarının aparılması, onların icra mexanizmlərinin işlənməsi və həyata keçirilməsi vacib şərtlərdəndir. "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 2002-ci il tarixli Fərmanı ölkədə qeyri-dövlət sektorunun inkişafını stimullaşdıran növbəti addım olmaqla, dövlət hakimiyyət orqanlarının struktur və vergi islahatında həllini tapan vacib məsələdir. Fərmanın müvafiq bəndi ilə şəhər və rayon icra hakimiyyətlərinə nəzarət və yoxlama funksiyalarını yerinə yetirən, "Yerli icra hakimiyyətləri haqqında" 16 iyun 1999-cu il tarixli Əsasnaməyə əlavədə və dövlət büdcəsinin məxaric hissəsində nəzərdə tutulmayan müxtəlif qurumların (departament, idarə və s.) on gün müddətində ləğv olunması tapşırığı sahibkarlığın inkişafı ilə yanaşı, qeyri-dövlət qurumu olan bələdiyyələrin də icra hakimiyyəti orqanları ilə qarşılıqlı fəaliyyətini müəyyən qədər tənzimləyəcəkdir.

Növbəti bələdiyyə seçkiləri də 23 dekabr 2019-cu ildə keçiriləcəkdir. Artıq bütün bələdiyyə üzvləri qeydiyyatdan keçmiş və təbliğat-təşviqat işlərinə start verilmişdir. Ümid edirik ki, bu seçkilərdə layiqli namizədlər səs toplayaraq bələdiyyə üzvü seçiləcəklər.Növbəti beş ildə onların fəaliyyətlərinə uğurlar arzulayırıq.

***Sumqayıt Regional Ədliyyə idarəsinin aparıcı məsləhətçisi, I dərəcəli ədliyyə qulluqçusu Quliyeva Afət Xansuvar qızı***

# 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü





***Noyabr ayının 22-si ədliyyə işçilərinin peşə bayramı günüdür.***

Bu bayram ümummilli lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə təsis olunmuşdur. Artıq ölkəmizdə ədliyyə orqanlarının yaradılmasından 95 il ötür.

Ədliyyə Nazirliyinin genişmiqyaslı işi sayəsində ədliyyə strukturlarının, məhkəmələrin və istintaq sahələrinin bərpası təmin olunmuş, gərgin fəaliyyət nəticəsində məhkəmə aparatları tədricən bərpa edilmiş, binalar qaydaya salınmış, hüquq ədəbiyyatı kitabxanası yaradılmışdır.

Bu peşə bayramı gününü qeyd edən rayonumuzun ədliyyə işçiləri, eləcə də onların bayram sevincinə şərik çıxan hüquq mühafizə orqanlarının əməkdaşları, ictimaiyyətin nümayəndələri əvvəlcə Heydər Əliyev Parkına ümummilli liderin abidəsini ziyarət edərək, önünə tər güllər düzərək onun əziz xatirəsini yad etdilər.

---

# Mütəfəkkür aşiq, mütəfəkkir arif..



Həyatı gərgin mübarizələrdə keçən, bəşəri ideallar daşıyıcısı olan dahi Azərbaycan şairi İmadəddin Nəsimi aşiqanə, eləcə də bədii- fəlsəfi şeirləri ilə tarixi qədim olan ədəbiyyatımızın ustad sənətkarlarından biri kimi tanınır .

Allah , Quran , islam dini ilə Nəsimi yaradıcılığının əlaqəsizliyini məcburi şəkildə təsdiqləməyə çalışan bəzi məkrli təhlilçilər onun əsərlərinin məna yönünü anlaşılmaz mücərrədliyə , xaosluğa səmtləndirdilər. Onlar haqsevər, imanlı, inamlı dahi Nəsimiyə "kafir" , açı , "din düşməni kimi" saxta damğa vurmağa çalışdılar. Nəsimi sözünün , kəlamının , gücü , qüdrəti haqsız hökmlərə qalib gəldi, əsrlərin üstündən adlayıb gələcəyə müzəffər ordu kimi addımladı. Şair təmkin məzmunlu əsərləri ilə sevdi, sevildi , sevilir, sevir, seviləcək sevəcək..

***... Təxtagah oldu mənə çünki sarayi- nasut,***
***Padişəhəm ki, mənim oldu cahani- mələkut.***
***... Gəl Nəsimi kibi sən kişvərini fəth edə gör,***
***Yoxsa kim, faydasız aləmi dutdum , ha dut.***

İ. Nəsimi ta qədimdən öz dövrünə qədər olan bütün dahilərin dunyaya baxış sistemlərindən xəbərdar olan filosof , şair-alimdir. Onun özünün dunyaya unikal baxış bucağı var. Mütətəkkür şair dünyanı müsəlman təfəkkürü ilə dərk edir , Allahı , Məməmməd peyğəmbəri poetik- fəlsəfi müstəvidə inamlı bəndə kimi qəbul edir.O , Quranı əsərləri üçün tükənməyən bənzərsiz , "bənzədilən obyekt " mənbəyi seçir. Yeri gəldikcə əsərləri vasitəsi ilə Quranın kəlməbəkəlmə ayəbəayə poetik təfsirini verir. Ərəb, fars , Azərbaycan dillərində bənzərsiz şeir nümünələri yaradan Nəsimi - eşqli aşiq , hürufi şairidir. O, hərflərə rəmzi məna verir və Əbcəd elmi ilə vəhdətdə olan fikirləri ilə bəşəriyyəti həqiqətə səsləyir. Nəsiminin Allah , Məhəmməd Peyğəmbər haqqında yazdığı şeirdə bir neçə beytə diqqət yetirək:

***Ya rəsuli-fəxri aləm , seyyidü -zatü-sifat !***
***Bəhri-zatın gövhərisən, həm sifatın eyni-zat.***
***Əhmədü Mahmudu Qasım , şahü sultani -rəsul,***
***Küntə kənzin mədəni , həm -kəşfi həlli- müşkilat.***
***Vəsfini "vənnəcmü" , "vəşşəmsü" təbarək söylədi,***
***Şaninə " təhavü" " yasin" gədi həqdən beyyinat.***
***Elm ilə hilmü həyavü tövbəvü zöhdü vər ə***
***Xəlqə fəzlindən irişdi rövzəvü həccü zəkat***
***Hər kim imanın yəqin etdi sana , ey pak din,***
***Layəzal oldu həmişə cavidan əndər həyat***
***Mömini -sadiq , müvəhhid canfəşan oldu sana ,***
***Gərçi müşrik şübhədən pak olmadı bisəbat***
***Ya şəfiül müznibin , rəhm et Nəsimiyə bu gün***
***Hasilim iki cahanda sənsən , ey pakizə zat!***

Haqqı dərk etmək , Allaha qovuşmağın yolu , bir sözlə Nəsiminin inanc sistemi gözümüz önündə canlanır:

***Tutma şeytani-rəcimin qövlini, Rəhmanə uy,***
***Kİm uyan şeytana cindir, tabei -Rəhman degil***

Nəsimi yol dunyasında şərin, nadanlığın uğursuzluğuna , perspektivsiz sonluğa malik olduğuna , məğlubiyyətinə , kamilliyin isə uğurlu qələbə qazanacağına inanır. Buna görədə aşiq, arif Nəsimi zamanın mövcud ictimai geriliklərini inadla ifşa edir:

***Ey özündən bixəbər, gəl haqqı tanı, səndədir.***
***Gəl vicdan şəhrinə seyr et gör ani səndədir.***

Kamilin vurğunu , təbliğçisi olan haqsevər Nəsimi fərdi ictimai nadanlıqla vidalaşmaq , kamilliklə , kamillər dünyasına qədəm qoymağ eşqi ilə yaşayır. O , bu amal uğrunda inadlı , inamlı mübarizə aparır. Mübariz Nəsiminin ağlı , ruhu , qəlbi Tanrının hökmü ilə eşq ummanına dönüb çağlayır:

***Nitq imiş aləmdə mövcud eşqimi qaim məqam***
***Bizə bildirdi əzəldən rəhbəri - movlayi eşq***

" Ənəlhəq" səlahiyyətli Şair aktual , bəşəri , həyati , mütərəqqi amallar uğrunda mübarizə apara-apara müdrikləşir , dahiləşir . O , yenilmə , haqq ideallarla silahlanan fərdi məni ilə cəhalət , nadanlıq dünyası ilə üzbəüz dayanıb ona meydan oxuyur.

Nəsiminin lirik qəhrəmanının qarşısında bir məqsəd durur: Əzəli əbədi var olan Həqiqətin varlığını kor təfəkkürlərə tam təfsilatı ilə sübut edib göstərmək:

***Əlfazi-Nəsimi bu gün ol möcüzədir kim,***
***Bənzər ana bir lölöyi - şəhvar söz.***

İctimai kədəri canına hopduran Nəsiminin fərdi həyatı iztirablı yollardan keçir. Kədər- iztirab nisbətinin böyüklüyü " ənəlhəq" şüarlı Nəsiminin aşiqliyini , arifliyini təsdiqləyən əzəli , əbədi Tanrı nişanəsidir.

***...Sən bu nişanla bil məni, mən bu nişanə sığmazam***

Bəli , ictimai kədər Nəsimini Allahı dərk etməyə sövq edir Kamilliyə qovuşmaq üçün çəkdiyi iztirab onu məğrurlaşdırır, insanlığın zirvəsinə qaldırır.

Həyata ,elmə, idraka, gözəlliyə aşiq olan Nəsimi arifanə bəndə kimi Tanrıya yaxınlaşır. Bu yaxınlaşma sirri-Xuda və sirri-bəndeyi-Nəsimi arasında olan əlçatmaz , qibtə olunan, ulu, müqəddəs rabitədir.

Allaha, kamil İnsana, İnsanlığa sonsuz İlahi sevgisi olan Nəsimi şeirləri təhlil sərhədlərinə sığmayır.

Nəsimi yaradıcıllığı çoxşaxəlidir. Nəsimişünaslıq bu yaradıcılıq haqqında hələ çox elmi araşdırmalar aparmalıdır.

Bizdə Nəsiminin inanc sistemini ötəri də olsa nəzərdən keçirdik. Bu dahi şairin müdrik mənalı əsərləri dünya durduqca yaşayacaq.

***... Ey Nəsimi cahanı tutdu sözün ,***
***Öznəkallah ki, şahi-kişvərisən!***

***Qobustan rayonu Mübariz Sahibov adına Ərəbqədim kənd tam orta məktəbin Dil-Ədəbiyyat müəllimi şair-publisist Mehman Rəcəbov***

*Ey Nəsimi, cümlə-cahan bildi qəratın həqq imiş.*
*Rəmzi-mənan, dövrü-şeyrin, fəhmi izharın həqq imiş.*

*Bir cahana can məkanı bir cahana sığmaz dedin,*
*Seyri-nüzul, seyri-üruc həddi-kənarın həqq imiş.*

*Eşqə layiq kamil aşiq, həqq diləyin küllisi yar,*
*Aşiq olan, eşqin üçün diləri-yarın həqq imiş.*

*Sən məniyi-gənci-nihan, baqi ənəlhəq demisən,*
*Pir muğanım, sirr dözümün, zülmü inkarın həqq imiş.*

*İnna lillahi racun!... Lailəhaillələhım...*
*Mehman der, ey Nəsimi, şeiri şüarın həqq imiş*

***Rəcəbov Mehman***

# Siqaretin zərəri barədə nə bilirik

***Müasir dövrümüzdə bəşəriyyətin qarşısında duran ən ciddi problemlərdən biri də tütündür. Tütünün insan orqanizminə ziyanları haqqında nə qədər təbliğat aparılsa da təəssüflər olsun ki, ondan istifadə edənlərin sayı getdikcə artmaqdadır.***

Hələ 1970-ci ildə Ümumdünya Səhiyyə Assambleyası ağ ciyər və ürək-damar xəstəliklərinin inkişafına həmçinin xroniki bronxit, emfizema və bir çox xəstəliklərə səbəb olan siqaret çəkmənin ciddiliyini dərk edərək dünyanın bütün səhiyyə orqanlarına müraciət etmiş, problemə qarşı lazımi tədbirlərin görülməsinin vacibliyini bildirmişdir. Həmin dövrdən başlayaraq dünyanın bir çox ölkəsində siqaretə qarşı təbliğat kampaniyaları başlamış və bu kampaniyalar bu gün də davam etdirilməkdədir.

Məlumat üçün bildirək ki, Ümumdünya Səhiyyə Təşkilatının hesablamalarına görə,dünyada hər il təxminən 5 milyona yaxın insan siqaretin zəhərli təsiri nəticəsində dünyasını dəyişir. 2020-ci ildə isə bu rəqəmin 2 dəfə artacağı gözlənilir.





### *Siqaret bədəndə 20 növ xərçəng xəstəliyi yaradır*

Alimlər siqaret çəkməyin sağlamlığa nə qədər ağır zərbələr vurduğunu bildirsələr də, lakin insanlar sağlamlıqlarını təhlükə qarşısında qoyduqlarını düşünmək belə istəmirlər. Əgər onlar siqaretin törətdiyi xəstəlikləri dərindən anlasalar, bəlkə də bu vərdişdən bir çox insanlar imtina edər, tüstüsüz sağlam həyat tərzinə üstünlük verərlər.

Mütəxəssislər bildirir ki,siqaret yaşından asılı olmayaraq hər bir şəxsə mənfi təsir göstərir və orqanizmdə bir çox xəstəliklər yaradır.Siqaretinyaratdığı ənağırxəstəlikdənbiridə xərçəngdir.Ağ ciyərxərçəngi,qidaborusuxərçəngi, tənəffüs üzvlərixərçəngivə s. Siqaretnikotinvə menoksidkorbenkimi öldürücü tərkibhissəsiilə bədən üzvlərində, ağciyərvə bağırsaqlarda ölümlə nəticələnənxərçəngyaradıcı virusların törənməsinə zəminyaradır. Adamlarsiqareti çəkməyə başlayankimi, onunmənfitəsirlərinə məruzqalır.İnsanlarsiqaretintərkibində olannikotinə alışırlar.Nikotinalkoqolvə kokainqədərgüclü təsirə malikdir. Alman mütəxəssislərinin gəldikləri qənaətə görə, siqaret çəkmək insan sağlamlığına ziyan yetirməklə yanaşı, beyinin iş fəaliyyətinin ölçüsünü azaldır. Tədqiqatçılar 11-64 yaş arası şəxslərin qavrama dərəcəsini ölçərkən bu nəticəyə gəliblər ki, uzun illər boyu siqaret çəkən şəxs qocaldıqda sağlam və geniş fikrə, dərin düşüncəyə malik olmur.Eyni zamanda siqaret iştahanı azaldaraq qidanın həzmini ağırlaşdırır, sümük boşluğu və digər ciddi problemlərə səbəb olur. Onu da əlavə edək ki, siqaret yuxu sistemini qarışdırır və oyanmanı çətinləşdirir, ümumi iş qabiliyyətini və fəaliyyəti azaldır, görmə qabiliyyətini çətinləşdirir, ağız boşluğunda pis qoxu yaradır.

### *İnfarktı yaradan əsas amillərdən biri də nikotindir*

Siqaretin törətdiyi qorxulu xəstəliklərdən biri də infarktdır. Tütün məhsullarından istifadə edən şəxslərin ürəyində qan dövranı azalır və ürəyin fəaliyyəti zəifləməyə başlayır. Damarların kilidləşməsinə və qan dövranının fəaliyyətini əngəlləyən nikotin qan təzyiqini artırır və bu da infarktın yaranmasına şərait yaradır.Araşdırmalar göstərir kı, infarkt keçirən xəstələrin 85%-i siqaret çəkən şəxslərdir ki, buna da əsasən kişilər məruz qalır.

### *Uşaqları siqaret tüstüsündən qoruyun*

Siqaretin böyük bəlalarından biri də onun passiv şəkildə yayılmasıdır. Belə ki, siqaret çəkən şəxsin yanında durmaq və ya onunla təmasda olmaq nəticəsində tütünün zəhərli maddələri insan orqanizminə daxil olur kı, bu da passiv tütün çəkmə adlanır. Bundan ən çox əziyyət çəkənlər isə uşaqlardır.Siqaretin fəsadlarının nə demək olduğunu bilməyən uşaqlar onun tüstüsünü qəbul edirlər.Bu onların hələ tam formalaşmayan orqanizminə dəhşətli dərəcədə mənfi təsir göstərir.Gələcəkdə bir çox xəstəliklərin yaranmasını sürətləndirir. Əgər hər hansı valideyn siqaret çəkirsə, öz övladı ilə təmasda olarkən nəfəs alanda belə uşağa mənfi təsir göstərir, onu infeksiyalara yoluxdurur. Təhqiqatlar müəyyən edib ki, uşaqlarda infeksiyanın 13 %-i ətrafdakıların siqaret çəkməsi nəticəsində yaranır.Siqaretdən aktiv şəkildə istifadə edən uşaqlar və ya yeniyetmələrdə isə vəziyyət daha acınacaqlıdır.Onlarda sonsuzluq, kütbeyinlik, əsəb kimi xəstəliklərin yaranması qaçılmazdır.

### *Qadınların tütünə aludəçiliyi daha təhlükəlidir*

Dünya Sağlamlıq Təşkilatlarının məlumatına görə siqaret qadınlara kişilərə nisbətən ikiqat mənfi təsir göstərir.Gündəlik həyatda çətinliklərlə qarşılaşan xanımlar kişilərdən fərqli olaraq daha çox stres keçirirlər və bu stresi aradan qaldırmaq üçün siqaret çəkməyi üstün tuturlar.Bu stres qadınları siqaretdən asılı edir və onu tərgitməkdə çətinlik törədir.

Hamilə qadınlardaisə siqaret dahaacınacaqlı fəsadlartörədir.Əgərhamilə qadınsiqaret çəkirsə və yaxudsiqaret çəkən şəxsinyanındatüstünü passiv şəkildə qəbuledirsə, hormonlaragüclü təsiredənzəhərlimaddələronungələcəkdə dünyayagətirəcəyikörpəninorqanizminə birbaşadaxilolurvə formalaşmaqdaolanorqanizmdə bir çoxxəstəliklərinyaranmasınınbaşlanğıcı olur.Hamilə qadınlarınhələ doğulmamış uşaqları anabətnində zərər çəkir.Cılız, zəifuşaqlarındoğumu, hətta ölü doğuşlarınehtimalı artır. Siqaret çəkən qadın uşağı əmizdirən zaman nikotin ana südü vasitəsilə körpəyə keçir.



### *Siqaretə yox deyək*

Hazırdadünyanınbir çox ölkələrində olduğukimi, Azərbaycandadatütünlə mübarizə ciddi şəkildə aparılır.Belə ki, KİV-də, radiovə televiziyalardatütün əleyhinə müxtəliftəbliğatkampaniyaları aparılır.Dünyatəcrübəsiningöstərdiyikimi, tütünməmulatlarınınqiymətlərininvə vergilərininartırılması siqaret çəkməyə qarşı kompleksmübarizə siyasətinin əneffektivkomponentlərindənbiridir."Siqaret çəkmənin məhdudlaşdırılması haqqında" qanun layihəsi Milli Məclisin gündəliyində duran məsələlər arasındadır.Dövlət səviyyəsində bu problemin aradan qaldırılması yolunda müəyyən addımlar atılmaqdadır.Əslində bu haqda müəyyən qaydalar olsa da əfsuslar olsun ki, bu qaydalara siqaret çəkən vətəndaşlarımız riayət etmir.Belə ki, hazırkı qanunvericiliyimizə əsasən siqaretin təhsil, idman, səhiyyə və mədəniyyət müəssisələrində çəkilməsi və satışı qadağandır.Lakin bütün tədbirlərlə yanaşı, ictimaiyyət də bu ciddi problemə biganə qalmamalı, hər bir şəxs bu yöndə təbliğat aparmalı, ictimai yerlərdə siqaret çəkənlərin qarşısını almağa çalışmalıdır.Unutmayaq ki, ictimai yerlərdə özümüz də bilmədən qəbul etdiyimiz zəhərli tüstülər gələcək həyatımızda bizə problemlər yaradır. Hazırda dünyanın bir çox ölkələrində olduğu kimi Türkiyədə də bu yöndə ciddi addımlar atılır və az müddət keçməsinə baxmayaraq, müsbətə doğru nəticələr əldə olunur. Biz də inanırıq ki, Respublikamızda aparılan təbliğatlar və tətbiq olunan qadağalar sayəsində siqaretə aludə olanlar bu pis vərdişdən yaxa qurtaracaqlar.

Təhsil və tərbiyə müəssisələri habelə onların əraziləri səhiyyə və tibbi-reabilatisaya müəssisələri habelə onların əraziləri məişət obyektləri sosial xidmət müəssisələri,teatr və kinoteatrlar,oxu zalları,kitabxanalar,muzeylər,habelə digər mədəniyyətobyektləri uşaq meydançaları,yeraltı və yerüstü piyada keçidləri və çoxmərtəbəli yaşayış binalarının ümumi istifadə olan yerləri ,yanacaq doldurma məntəqələri o cumlədən tezalışan maddələrin saxlandığı bina və müəsisələr habelə bu maddələr daşındığı nəqliyyat vasitələri istisna olmaqla (bu yerlərdə siqaret çəkilməsi ümumiyyətlə qadağan edilir)siqaret çəkilməsinə yol verilə bilən digər dövlət,idarə,müəssisə və təşkilatlarında Nazirlər Kabinetinin 2018-ci il 3 aprel tarixli 127 nömrəli qərarı ilə təsdiq edilmiş tələblərə uyğun tütün çəkmək üçün xüsusi ayrılmış açıq yerlərin vəziyyətini qiymətləndirmək üçün Qobustan rayon Gigiyena və Epidemiologiya Mərkəzi yoxlamalar keçirdəcək.

Tütün çəkilməsinə yol verilə bilən idarə,müəssisə və təşkilatlarında tütün çəkmək üçün xüsusi ayrılmış qapalı yaxud xüsusi ayrılmış açıq yerlərin təşkil edilmədiyi hallarda dövlət idarə ,müəssisə və təşkilatlarında belə yerlərin yaradılması barədə təkliflər vermək ,təklifləri icra etməyən idarə ,müəssisə və təşkilatlarının cavabdeh şəxsləri barədə inzibati xətalar Məcəlləsinin 12.2 maddəsinə əsasən inzibati tədbirlər görmək nəzərdə tutulmuşdur.

Bəli, hamılıqla çalışmalıyıq ki, həyatda ən böyük var-dövlət olan cansağlığımızı tütünə qurban verməyək. Allahın bizə bəxş etdiyi əmanəti göz bəbəyi kimi qoruyaq. Qoruyaq ki, bizdən sonra gələn nəsillərimiz sağlam olsunlar.

***Qobustan rayon GEM-nin direktoru R.H.Hümbətov***

# YAP Qobustan rayon təşkilatı 23dekabr 2019-cu il tarixdə keçiriləcək Bələdiyyə seçkilərilə əlaqədar təbliğat-təşviqat kampaniyasını davam etdirir











***23 dekabr bələdiyyə seçkiləri ilə əlaqədar olaraq Qobustan rayonunda təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Növbəti görüş Qobustan rayon Təhsil işçiləri ilə keçirilib.***

Görüşü Yeni Azərbaycan Partiyası Qobustan rayon Seçki Qərərgahının eyni zamanda, Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev açaraq bələdiyyə seçkilərindən, bu seçkilərlə əlaqədar indiyə qədər görülmüş işlərdən, dövlətimizin yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə olan yüksək diqqət və qayğısından, eləcə də, gələcəkdə bələdiyyələrin qarşısında duran vəzifələrdən danışmışdır.

Füzuli Gülaliyev həyata keçirilən irimiqyaslı layihələrin, məhz Yeni Azərbaycan Partiyasının və onun Sədri, ölkə Prezidenti İlham Əliyevin adıyla bağlı olduğunu və bütün bunların hər bir vətəndaşın gözü qarşısında baş verdiyini seçicilərin diqqətinə çatdırıb. Azərbaycan xalqı xoşbəxtdir ki, bu gün cənab Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin həyata keçirdiyi siyasəti uğurla davam etdirir. Bu gün Azərbaycanda təhsilə qayğı ən yüksək səviyyədədir.Bu sahədə həyata keçirilən hər bir islahat ilk növbədə Azərbaycanın xoşbəxt gələcəyinə hesablanıb.Hazırda Azərbaycan məktəblərinin 90%-dən çoxu kompyuter və digər informasiya-komunikasiya texnologiyaları avadanlıqları ilə təchiz edilib.Ölkəmizdə son 15 ildə heç bir dövrdə olmayan qədər məktəblər tikilib,bir çox məktəblər üçün yeni korpuslar inşa olunub.Bu proses ən ucqar bölgələrimizi də əhatə edib.Məktəblərin maddi – texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülüb.Bu gün davamlı olaraq təhsil sahəsində islahatlar həyata keçirilməkdədir. Məhz buna görə də cənab İlham Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında əvəzolunmaz fəaliyyəti, hesabagəlməz xidmətləri dövlətimizi azad və xoşbəxt görmək istəyən hər bir kəsin üreyindəndir.

YAP tərəfindən irəli sürülən namizədlərin xalqımız tərəfindən yekdil dəstək alacağına inandığını bildirərək, seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstək olmağa çağırıb. , Qobustan rayonunda rayon sakinlərinin YAP-a, partiyanın Sədri, ölkə Prezidenti İlham Əliyevə inamı çox güclüdür.Qobustanlılar bu inamı keçirilən bütün seçkilərdə nümayiş etdirmişlər. Zəngin seçki təcrübəsinə malik olan rayonumuzda bütün seçki proseslərində hər zaman yüksək seçici fəallığı nümayiş olunubdur. Əminliklə deyə bilərik ki, bələdiyyə seçkiləri də rayonumuzda uğurla keçəcək, seçicilərimiz Yeni Azərbaycan Partiyasının namizədlərinə böyük dəstək olacaq və onlara səs verəcəklər. Görüşdə çıxış edən təbliğat qrupunun üzvlərindən Əsgərov Valeh,Şahbazov Ruslan,Abduləzizov Əlibəy və digərləri çıxış edərək 23 dekabr 2019-cu il bələdiyyə seçkilərində seçiciləri fəal iştirak etməyə, ölkəmizin hərtərəfli inkişafının davamlı olması naminə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

# Art terapiya



Rəsm terapiyası, məqsəd şagirdlərin psixoloji durumlarının yoxlanması, ən çox özünü ifadə etməkdə çətinlik çəkən şagirdlərlə aparilir. Biz bunu qrup halında təşkil etdik. Şagirdlərin isti və soyuq rənglərə munasibətini öyrəndik. Terapiyanin sonunda bütün şagirdlərin əhval ruhiyyəsinin yuksəldiyini muşahidə etdim. Maraqli idi uşaqlar üçün.

***Psixloloq Kərimova Sevil***





## Elan

Dəmirov Babairza Azay oğluna və ailə üzvlərinə DT və XK tərəfindən verilmiş, Qobustan rayonu Təkləmirzəbaba kəndində yerləşən JN-288 nömrəli kod 30703028 torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Qobustan rayonu Nəriman kənd dini icmasının (129 №-li şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 10 dekabr 2019-cu il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

24.06.2002-ci il tarixdə dövlət qeydiyyatından keçmiş Qobustan şəhərində fəaliyyət göstərən Nəriman kənd dini icmasına məxsus möhür-ştamp itdiyi üçün etibarsız sayılır.

# Bildiriş

Azərbaycan Respublikası Baş prokurorunun müavini cənab Namiq Əsgərov Qobustan və Şamaxı rayon sakinlərinin qəbulu keçiriləcəkdir.

Qəbul 06 dekabr tarixində saat 10:00-da rayon prokurorluğunun inzibati binasında olacaq.

Qəbulda iştirak etmək istəyən Qobustan rayon sakinləri qeydiyyatlarının aparılması üçün rayon prokurorluğuna müraciət edə bilərlər.

# 2019-cu ilin dekabr ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr, hesabatlar, ödənilməli vergilər və sığorta haqqları barədə

## Y A D D A Ş

✦ Məcburi dövlət sosial sığortası və işsizlik sığortası üzrə 2019-cu ilin noyabr ayı üzrə hesablanmış sığorta haqları 2019-cu ilin dekabr ayının 16-dan gec olmayaraq tam həcmdə nağdsız formada dövlət büdcəsinə ödənilməlidir.

**2019-cu ilin noyabr ayına görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

✦ Əlavə dəyər vergisinin bəyannaməsi,
✦ Aksiz bəyannaməsi,
✦ Yol vergisinin bəyannaməsi,
✦ Mədən vergisinin bəyannaməsi,
✦ Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
✦ Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan verginin bəyannaməsi

**2019-cu ilin dekabr ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.**

✦ Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi 2019-cu ilin dekabr ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

✦ Muzdlu işlə əlaqədar 2019-cu ilin noyabr ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi 2019-cu ilin dekabr ayının 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - 2020-ci ilin yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 2019-cu ilin 4- cü rübü üzrə bəyannaməni 2020-ci ilin yanvar ayının 21-dən gec olmayaraq təqdim edirlər).

✦ Xüsusi notariusların 2019-cu ilin noyabr ayı üzrə hesabladığı gəlir vergisi 2019- cu ilin dekabr ayının 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2019-cu ilin 4-cü rübü üzrə bəyannamə 2020-ci ilin yanvar ayının 21-dən gec olmayaraq təqdim edilməlidir).

***Qeyd:***

✦ 15.12.2019-cu il tarixi qeyri-iş gününə təsadüf etdiyindən məcburi dövlət sosial sığortası və işsizlik sığortası üzrə sığorta haqlarının ödənilməsinin son müddəti 16.12.2019-cu il tarixə keçirilmişdir.

✦ 20.01.2020-ci il tarixi qeyri-iş gününə təsadüf etdiyindən həmin tarixdə təqdim edilməli bəyannamələrin təqdim edilməsinin son müddəti 21.01.2020-ci il tarixə keçirilmişdir.

# Xərçəngə qarşı qidalanma: Onkoloqlar bədxassəli şişlərdən qorunmağın qaydasını tərtib etdi

***Elmi araşdırmalar göstərir ki, qidalanma prinsipi şişlərin inkişaf riskini azaltmağa kömək edir. Seçenov Universitetinin Uroloji Klinikasının onkoloqları qidalanma qaydaları ilə bağlı xəritə tərtib edib. Bunları bilmək öz sağlamlığını qorumaq istəyən və yaxınlarının səhhətinin qeydinə qalan hər kəs üçün faydalıdır. Mütəxəssislər iddia edir ki, xərçəng diaqnozu qoyulubsa, bu prinsiplərə əməl etmək müalicə şansını artırır.***

Bu yazıda oxucuları onkoloqların hazırladığı qidalanma qaydaları ilə tanış edirik.

Bunlar yaşıl tərəvəz adlanır, çünki onlar demək olar ki, "pis" (həzm edilə bilən) karbohidratlar deyil. Bu cür tərəvəzlər qanda şəkərin səviyyəsini artırmır və aşağı kalorili tərkibə malikdir. İstədiyiniz qədər yeyə bilərsiniz.

Ən yaxşı göyərti kahı yarpaqlarıdır. Rəng nə qədər parlaqdırsa, bir o qədər faydalıdır. Şişlərin başlaması və inkişafının qarşısını almaq üçün tez-tez rasiona aşağıdakıları daxil edin:

- gül kələmi, qırmızı və ağ kələm
- brokoli
- ispanaq
- şalgam
- yaşıl soğan və kəvər.

Şəkərə nəzarət edirik

Hər çay qaşığı şəkərin sağlamlığa zərərli olması barədə internetdə bir çox "dəhşətli hekayə" var, şəkər zərərli hüceyrələrin böyüməsi üçün yanacaqdır. Elm bunu təsdiqləyir.

- Şəkər həqiqətən bədəndəki bütün hüceyrələri qidalandırır: həm sağlam, həm də xərçəng. Yediyimiz karbohidratlar bir növ "şəkər" şəklində parçalanır. Və bu məhsul bədəndə əsas enerji mənbəyi kimi xidmət edir. Daha az karbohidrat yeməyə başlasanız, bədən zülal və yağ kimi digər mənbələrdən də enerji alacaq.

- İnsulin hormonu hüceyrələrimizə şəkəri "tutmaq" və enerji yaratmaq imkanı verir. Nə qədər şəkər istifadə etsəniz, bir o qədər insulin ifraz olunur. Elmi tədqiqatlar göstərir ki, qanda yüksək miqdarda insulin xərçəng riskinin artması ilə əlaqələndirilir. Yəni, insulin normal olduqda narahat olmaq üçün heç bir səbəb yoxdur. Lakin həddindən artıq insulin xərçəng hüceyrələrinin böyüməsini stimullaşdırır.

Artıq çəki və piylənmə insulin müqavimətinə (hüceyrələrin insulinə həssaslığı) və 2 tip diabetin inkişafına səbəb ola bilər. Bu halda qanda insulinin səviyyəsi yüksəlir və xərçəng riski inkişaf edir. Bundan əlavə, artıq çəki bədxassəli şişlərin böyüməsini stimullaşdıra bilər.



Əgər artıq çəki yoxdursa və qanda qlükoza səviyyəsi artırmırsa, onda uyğun miqdarda şirniyyat yemək əks göstəriş verməyəcək. Ümumdünya Səhiyyə Təşkilatının normalarına əsasən, qida və içkilər də daxil olmaqla gündə 6 çay qaşığı şəkərdən çox istifadə etməmək tövsiyə olunur.

Artıq çəki, qlükoza və ya insulinin səviyyəsi ilə bağlı problemlər varsa (bunu həm tibbi müayinə zamanı, həm də endokrinoloqa müraciət edərək müəyyən edə bilərsiniz), şirniyyatı məhdudlaşdırmaq lazımdır. Qədərini həkimlər təyin edəcək.

Amerika Xərçəng Birliyi, Amerika Birləşmiş Ştatlarında xərçəng səbəbi ilə baş verən üç ölüm hadisəsindən birini çəki, qidalanma və ya oturaq həyat tərzi ilə əlaqələndirir. Piylənmə olan insanlarda xərçəngin təkrarlanma riski var.

Sübut olunub ki, artıq çəki və piylənmə xərçəng riskini artırır:

döş xərçəngi (xüsusilə menopozdan sonra qadınlarda);
kolorektal xərçəng;
endometrial xərçəng;
qida borusu xərçəngi;
böyrək xərçəngi;
yumurtalıq xərçəngi;
pankreas xərçəngi.

Bu ipucları kalorini azaltmağa, çəkini normallaşdırmağa və ümumiyyətlə sağlamlığınızı yaxşılaşdırmağa kömək edəcək.

- Yağ soyumuş şorbaların və sulu yeməklərin səthində yığılır. Yağı çıxarın və yeməyi qızdırın.

- Duzu məhdudlaşdırın. Bişirmə zamanı daha az əlavə etməyə çalışın və masaya duz qoymayın. Dadı artırmaq üçün ədviyyat, şərab, limon suyu istifadə edə bilərsiniz.

- Az yağlı ət istifadə edin. Əti sobada yağsız bişirmək məsləhətdir.

- Pəhrizə daha çox tərəvəz əlavə edin. Gündə 400 qram yemək ideal normadır. Hər yeməkdə boşqabınızda tərəvəzlərin olması məsləhətdir. Nə qədər az bişsələr, bir o qədər yaxşıdır. Kartof 400 qram tərəvəzin tərkibinə daxil deyil.

- Arpa kimi bütün taxıl növlərindən istifadə edin. Blinçik, şirin kökə, çörək və xəmir hazırlamaq üçün bu undan istifadə edilə bilər.

Rusiya Səhiyyə Nazirliyinin baş onkoloqu, akademik Andrey Kaprinin sözlərinə görə, sağlamlığımızın əsas düşməni və xərçəngin tərəfdarları bunlardır:

1) Trans yağlarda bişirilən bütün məhsullar, ilk növbədə fəstfud. Təhlükəli məhsullar arasında çipsi də var. Etiketlərdə trans yağlar adətən aşağıdakı adlarla maskalanır: "Qismən hidrogenləşdirilmiş yağlar", "Bərkimiş yağlar", "Modifikasiya edilmiş yağlar".

2) Tədqiqatlar göstərir ki, kolbasa, sosiska və digər konservləşdirilmiş ət gündəlik istifadə edildikdə bağırsaq xərçənginin inkişaf riskini xeyli artırır. Xəstəliyin yayılması dünyada böyüyür, proqnozlara görə, bu xərçəng növünə yoluxanlar tezliklə ağciyər xərçəngi və döş xərçəngindən əziyyət çəkənləri ötüb keçəcək.

3) Daha sadə sözlə, etanolun parçalanması zəhərli məhsulları hüceyrələrdə mutasiyaya səbəb olur ki, bu da şişin əmələ gəlməsi və böyüməsi riskini artırır. Minimum alkoqol istifadəsi zamanı sağlam orqanizm ona dəymiş zərəri bərpa edərək ortaya çıxan xərçəng hüceyrələrini məhv edir. Bədənin zəifləməsi və ya şəxsin alkoqoldan sui-istifadə etməsi halında xərçəng riski dəfələrlə artır. Bu gün alkoqol istifadəsi ilə yalnız qaraciyərin deyil, eyni zamanda döş, ağciyər, prostat, mədəaltı vəzi xərçəngi arasındakı əlaqənin olduğu sübut edilib.

Son beynəlxalq araşdırmalara əsasən, ən təhlükəsiz spirt miqdarı - 13 dərəcəli 2,5 qədəh şərabdır.

Alkoqolun bu həddən sonrakı miqdarı sağlamlıq üçün riski əhəmiyyətli dərəcədə artırır. Elm adamlarının sözlərinə görə, həftədə 6 qədəh şərab, 6 stəkan pivə və ya 14 badə araq həm qadınlar, həm də kişilər üçün zərərlidir. Alkoqol qəbulu arasında 1-2 gün fasilə vermək məsləhət görülür. Dozanı bir anda içmək məsləhət deyil. Bu, bədənə yükü kritik şəkildə artırır və qoruyucu mexanizmlərin, o cümlədən xərçəng əleyhinə təsirlərin azalmasına səbəb olur.

## Yastığın altına sarımsaq qoymağın faydaları

***Ziyafətlərdə tez-tez işlətdiyimiz və şəfa niyyətinə bol istehlak etdiyimiz sarımsağı yastığın altına qoymağı sınadınızmı? Məhz sarımsağı yastığın altına qoysanız ortaya çıxan faydaları görəcəksiniz.***

Sarımsaq qədimlərdən bəri bir çox sahədə istifadə edilən faydalı qidadır. Sarımsaq güclü ətirə və kəskin qoxusuna baxmayaraq, dünyada ən çox yeyilən qidalar siyahısında yer alır. Yeməklərdə və xəstəliklərdə şəfa niyyətinə istifadə edilən sarımsaq yastığın altına qoymaq bir çox fayda verirmiş.

Publika.az bildirir ki, Sarımsağın tərkibindəki sülfüroz məzmunlar sarımsağın ətirlə birləşəndə rahatladıcı bir təsir yaradır. Beləliklə, yuxuya getməyi asanlaşdırır, insana daha rahat yuxu verir.

Tərkibində bol sink olması səbəbindən beldə və sümüklərdə yaranan ağrılara yaxşı təsir göstərir.

Fiziki çıxışda da müsbət təsir göstərən sarımsaq daha sakit və fəal olmağınıza köməkçi olur.

## Professor xəbərdarlıq etdi - Bir kasa qatıq və bir alma...

***Trakya Universitetinin Qida Mühəndisliyi professoru Hacı Güleç "Prebiotiklər: Sağlamlığımıza təsiri, İstehsalı və Biotexnoloji Tədqiqatlar" adlı konfransda probiotik və prebiotik konsepsiyaların qarışdırıldığını söyləyib.***

Professor bir kasa qatıqdan sonra bir ədəd alma yeməyi məsləhət görüb:



"Probiotiklər kefir və süd məhsullarında canlı orqanizmdir, onları qidalandıran təbii əlavələrdir. Probiotik və prebiotik balansını düzgün qidalanma ilə təmin edə bilərik. Məsələn, bir kasa qatıqdan sonra mütləq bir alma yemək lazımdır. Alma, yaşıl tərəvəzlər, çuğundur və yer alması ilə bədənimizə faydalı olan probiotiklər və prebiotiklər qəbul edə bilərik".

Arıqlamaq və ya çəkini stabil saxlamaq üçün bəzən pəhrizlərdə yalnız süd məhsullarına yer verilməsinə mütəxəssis belə münasibət bildirib:

"Bu zaman probiotik mikroorqanizmi bağırsaqlarda ölür. Heç bir fayda görmürük. Yalnız probiotik kifayət deyil. Probiotiklər və prebiotiklərin birlikdə istifadəsi böyük rol oynayır. Arıqlamaq üçün düzgün qidalanın. Düzgün qidalanma sayəsində həm çəkini nəzarətdə saxlamaq, həm də arıqlamaq mümkündür".

## Bu sözləri əsla uşaqlara deməyin!

***Psixoloqlar uşaqlara bəzi sözləri deməməyi məsləhət görür.***

Mütəxəssislərin fikrincə, valideynlərin yorğun və hirsli olarkən övladlarına dediyi ifadələr sonradan onlarda kəskin iz buraxa bilər.

Bu isə nəsildən-nəslə ötürülməklə fərdin inkişafına mane olur. Psixoloqların valideynlərə tövsiyə etmədiyi kəlmələr: "Bacın, qardaşın özünü səndən yaxşı aparır".

Psixoloqlar məsləhət görür ki, bu sözləri "Bu gün beləsən, dünən isə fərqli idin. Nəsə baş verib?"lə əvəz edin. "Tezliklə məni dəli edəcəksən və ya səndən yoruldum, anana əziyyət vermə". Uşaq daim valideynlərinin diqqətini çəkməyə çalışdığından, sizin işlətdiyiniz ifadələri anlamaya bilər. "Oyuncaqlar otağa səpələnəndə hirslənməyə başlayıram".

"Səndən heç nə olmayacaq".

Psixoloqların fikrincə, bu sözü özünüzün yaxşı valideyn olmayacağınızdan qorxduğunuz üçün işlədirsiniz. Bu isə uşaqda özünüqiymətləndirməni aşağı sala bilər.

## Çinar yarpağı bu xəstəlikləri sağaldır

***Çinar ölkəmizin hər yerində yetişən, uzunömürlü və dayanıqlı olması ilə tanınan, olduqca iri bir gövdəyə və geniş yarpaqlara malik ağac növüdür. Gövdəsi mebel istehsalında istifadə edilən çinar yarpaqlarının isə insan sağlamlığı üçün saysız-hesabsız faydaları var.***



Hər gün yeni bir faydası öyrənilən çinar yarpaqları xüsusilə son illərdə bitkilərlə müalicə sahəsində ən populyar məhsullardan biri sayılır.

***Çinar yarpağının faydaları hansılardır?***

Çinar yarpağı bir çox fərqli problemin müalicəsi üçün istifadə edilə bilər. Ən çox daşlaşmaya qarşı göstərdiyi müsbət təsirlər səbəbi ilə məşhurlaşmış olsa da, çinar yarpağını aşağıdakı faydaları da mövcuddur:

Hüceyrə yeniləyici xüsusiyyəti sayəsində yanıq müalicəsində istifadə edilir.

***Yel ağrılarına yaxşı kömək edir.***

Saç dərisini yaxşılaşdıraraq saçlardakı kəpəyin qarşısını alır və saç dibini gücləndirir.

***Bədəndə şiş əmələ gəlməsini azaldır.***

*Təsisçi:* **Qobustan Rayon İcra Hakimiyyəti**

**www.qobustan-ih.gov.az**

***Baş redaktor:***
**Ruslan Şahbazov**
**Tel.: (050) 524 28 10**
**(070) 224 28 10**

***Ünvan:***
Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet "Son dəqiqə" mətbəəsində çap olunmuşdur
Tiraj: 2000
**E_mail:qobustanqazeti@mail.ru**